***MƏKTƏBƏQƏDƏR TƏHSİL VƏ TƏRBİYƏ***
***ДОШКОЛЬНОЕ ОБРАЗОВАНИЕ И ВОСПИТАНИЕ***
***PRESCHOOL EDUCATION AND UPBRİNGİNG***

*UOT 373.2*

# MƏKTƏBƏQƏDƏR YAŞLI UŞAQLARDA HƏYATİ BİLİK VƏ BACARIQLARIN İNKİŞAFINDA İSTİFADƏ EDİLƏN METODİK PRİYOM VƏ ÜSULLAR

**Qönçə Mahmud qızı Rəhimova**
*Azərbaycan Dövlət Pedaqoji Universitetinin müəllimi, doktorantı,*
**ORCİD:** 0009-0003-3836-2824
**E-mail:** qm.rahimova@adpu.edu.az

***Açar sözlər:*** *məktəbəqədər dövr, metodik prinsiplər və metodlar, təlim, tərbiyə, həyati biliklər, bacarıqlar, intellektual tərbiyə.*
***Ключевые слова:*** *дошкольный период, методические принципы и методы, обучение, воспитание, жизненно важные знания, умения, интеллектуальное воспитание.*
***Key words:*** *school period, methodological approaches and methods, training, upbringing, life knowledge, skills, intellectual upbringing.*

Məktəbəqədər dövrdə uşaqlar həyati bilikləri haqqında ilkin təsəvvürlərə yiyələnmə prosesində onların əqli inkişafı sürətlənir, nitqi inkişaf edir, onlarda ətrafdakılara düzgün münasibət yaranır. Məktəbəqədər təhsil müəssisələrində tərbiyəçilər məşğələ və məşğələdən kənar vaxtlarda istifadə edəcəyi metodik priyom və üsulların seçiminə ciddi surətdə yanaşmalıdır.

Tədris prosesində tətbiq olunan metodlar bəzən metodik priyomlarla əvəz olunur. Lakin metodla priyom arasında kəskin fərq yoxdur. Bəzi pedaqoqlara görə metodik priyom hər hansı metodun elementi olub, əsas metodun didaktik imkanlarını gücləndirmək məqsədilə tətbiq olunur. Bir məşğələdə bir neçə təlim metodundan istifadə etmək olar, lakin metodik priyomlar sistem təşkil edir.

Metodlar əsasən üç qrupa - şifahi, əyani və praktik metodlara bölünür. Əyani metodlara müşahidə, əşyaların nümayişi, şəkil və illüstrasiyaların nümayişi, nümunənin nümayişi, fəaliyyət üsullarının nümayişi, kinofilmlərdən, cizgi filmləri, videofilmlərdən istifadə, didaktik vəsaitlər. Şifahi metodlara izah, şərh, müsahibə və s. aiddir. Praktik metodlara tapşırıq, oyun, elementar təcrübə və s. aiddir.

Metodik priyomlar üsullar həmişə metodlarla birlikdə tətbiq olunur. Lakin çox halda tətbiq olunan üsul metoda, metod isə üsula çevrilir. Ümumiyyətlə, tədris metodları özündə bir neçə iş üsulları əxz edir. Bu üsullara metodun elementləri, hissələri kimi baxılır. Üsullar yardımçı əhəmiyyətə malikdir. Onlar bir və ya bir sıra müxtəlif metodların bir hissəsi ola bilər. Məsələn: Ətraf aləmlə tanışlıq məşğələlərində tərbiyəçi çox zaman söhbət yaxud müsahibə, praktik iş və müşahidələr zamanı müqayisə etmək üsulundan istifadə edir.

Elə etmək lazımdır ki, istifadə olunan hər bir üsuldan uşaqlarda həyati bilikləri inkişaf etdirilməsində səmərəli istifadə olunsun. Ümumiyyətlə, təlim metodu dedikdə uşaqlara tərbiyəçi

tərəfindən bilik və bacarıqların verilməsi, onların idrak qabiliyyətlərini inkişaf etdirmək, dünyagörüşlərini formalaşdırmaq, həyata hazırlamaq üsulları başa düşülür. Bir tərəfdən bu və ya digər metod tərbiyəçinin şərh etdiyi hazır biliklərin uşaqlar tərəfindən formlaşdırılmasına kömək edir, digər tərəfdən tərbiyəçinin nəzarəti altında uşaqlar müstəqil surətdə işləməyi öyrənirlər.

Məktəbəqədər yaşlı uşaqların təbiətə humanist münasibətlərinin formalaşdırılmasında ətraf aləmlə tanışlıq məşğələsi böyük rol oynayır. Onların bu bilikləri orta məktəbdə təbiət fənlərinin coğrafiya, botanika, zoologiya, anatomiya öyrənilməsi üçün mənbə təşkil edir. Bu fənlərin öyrədilməsi prosesində uşaqlar ətraf mühitin tamlığı və müxtəlifliyi, onun qorunması haqqında elementar biliklər əldə edir. Vətənimizin gözəllikləri və insan orqanizmi haqqında məlumatlar əldə edirlər. Uşaqlarda həyati bilik və bacarıqların inkişafı etdirməyin vəzifəsi canlı və cansız aləmin komponentləri arasında əlaqə yaratmaqdır. Bu ideyanın reallaşdırılmasında seçilən metod və üsulların rolu böyükdür. Bu üsul və metodlar uşaqlarda dostluq, şəxsi məsuliyyət, xeyirxahlıq, ədalətlilik kimi xüsusiyyətlərinin tərbiyə edilməsinə imkan yaratmalıdır. Bütün bunlar uşaqlarda məntiqi təfəkkürün inkişafına təkan verir. Məntiqi təfəkkürün inkişafı özünü ümumiləşdirmə aparmaq bacarığının formalaşmasında biruzə verir. İlk ümumiləşdirilmələrə hissi qavrayışla nail olunur ki, bu da tərbiyəçi tərəfindən inkişaf etdirilir. Müasir məşğələnin əsas məqsədi mövzunun formalaşdırılmasında uşaqların diqqətini cəlb etməkdən, uşaqların qarşısında problem qoymaqdan və bu məsələlərin həlli yollarını tapmaqdan ibarətdir.

Məşğələnin tədrisində bir çox təlim üsullarından istifadə edilir. L.Lerner və M.Skatkin aşağıdakı metodları təklif etmişlər.

**1. İzahedici - illüsturativ və ya reproduktiv üsul.** Bu üsul o vaxt tətbiq olunur ki, uşaqlar tərbiyəçidən hazır şəkildə əldə edirlər. Bu üsul bu və ya digər mövzunun öyrənilməsinin başlanğıcında tətbiq olunur.

**2. Problemli metodun** tətbiqində uşaqlar qarşısında problem qoyulur. Bu üsula problemli situasiya da deyilir. Tərbiyəçinin köməyi ilə uşaqlar onun həlli yollarını tapmağa çalışırlar.

**3. Axtarış metodu** o zaman tətbiq olunur ki, uşaqlar materialla özləri tanış olur, müstəqil olaraq nəticələr əldə edirlər.

**4. Tədqiqat metodu** uşaqlar tədqiqat aparır və problemin həllini formalaşdırırlar.

**5. Nümayiş metodları.** Əyanilik prinsipini reallaşdırır, uşaqların duyğu və qavrama proseslərinin fəallaşdırır ki, bu da təlim materialının qavranılmasını asanlaşdırır (cədvəl, maket, model, diaqram, didaktik kartlar).

**6. Praktik metodlar.** Biliklərin bacarığa çevrilməsi, praktika ilə əlaqədar işlərin yerinə yetirilməsi.

**7. Şifahi söz metodları.** Söhbət, mühazirə, hekayə-təlim prosesində əlaqədar işlərin, tapşırıqların işlərinin yerinə yetirilməsi.

**8. Modelləşdirilmə metodu.** Model-əyanilik vasitəsidir.

**9. Müşahidə metodu.** Məktəbəqədər yaşlı uşaqlarda həyati bilik və bacarıqların inkişafında istifadə edilən əsas üsuldur. Məqsədyönlü müşahidə və praktiki fəaliyyətlə (toxum, yarpaq yığımı və s.) uşaqların təbiətə qovuşması prosesidir.

**10. Ümumelmi metodlar:** analiz, sintez, müqayisə, təsnifləşdirmə.

**Fəal təlimin təşkili üsulları.** Fəal təlimə görə 4 iş forması vardır: kollektiv, qruplarla, cütlərlə fərdi. Başqa məşğələlərdə olduğu kimi “Ətraf aləmlə tanışlıq” məşğələlərində də həmin iş

formalarından istifadə olunur. Qeyd olunan təlim formalarının tətbiqi verilən mövzular üçün reallaşan standartlardan, müəyyən olunmuş təlim məqsədlərindən asılıdır.

**Kollektiv iş.** Bu iş formasında uşaqlar kollektivdə işləmə və ünsiyyət bacarıqlarına yiyələnirlər.

**Qruplarla iş.** Uşaqlar  hər hansı bir problemi həll etmək və ya müəyyən praktiki işi yerinə yetirmək üçün qrup daxilində işləyirlər. Bu zaman onlarda əməkdaşlıq, hər hansı tapşırıq üzərində işlədikdə qarşılıqlı dinləmə, ümumi fikir mübadiləsi formalaşır ki, bununla da mövcud problemin həlli daha da asanlaşır.

**Cütlərlə iş.** Uşaqlar verilən tapşırıqları iki-iki olaraq birgə yerinə yetirirlər. Bu təlim forması onlara daha yaxın ünsiyyət qurmağa imkan verir və onlar hər hansı problemin həllində qarşılıqlı razılaşmaya gəlirlər.

**Fərdi iş.** Qrupda hər bir uşağın sərbəst fikir söyləməsinə, yaradıcı tətbiqetmə bacarıqlarının, fəaliyyətinin və nailiyyətinin izlənilməsinə və onların potensial imkanlarını müəyyən etməyə imkan verir.

**Fəal təlim üsulları:** Təlim prosesinin daha da səmərəli təşkili müasir dövrdə çox geniş tətbiq olunan fəal təlim üsulları ilə işləməkdir. Fəal təlim üsullarından istifadə etmək hər bir tərbiyəçidən xüsusi bacarıq, şəxsi keyfiyyət və məsuliyyət tələb edir. Tərbiyəçi təlim üsullarını məşğələnin təlim formasına və təlim məqsədlərinə görə seçməlidir. Hər bir fənn tərbiyəçinin təlim prosesini daha səmərəli həyata keçirməsi üçün özünəməxsus üsulları ola bilər.

Fəal-interaktiv təlimin bir neçə üsullarının mahiyyətini və qısa məzmunu aşağıdakı kimi qruplaşdırmaq olar:

**Müsahibə üsulu.** Tərbiyəçi yeni bilikləri inkişaf etdirmək işinə uşaqların özlərini cəlb edirsə, yeni mövzu  öyrədiləndə uşaqlara bildikləri bir şeyi xatırlatmaq, müşahidə etmək kimi sual - tapşırıqlar verirsə, bu cür təlim üsuluna evristik müsahibə deyilir. Burada  uşaq  müstəqilliyi üstünlük təşkil edir.

**Müzakirə. (diskussiya):** Uşaqlarda məlumat və ideyalarının təşkil olunması, fərqli və oxşar cəhətlərin müqayisə edilməsi, anlayış və ideyalarının aydınlaşdırılması, yoxlanılması, problemlərin həlli yollarına dair alternativ fikirlərin əsaslandırılması, proqnozların verilməsi, informasiyanın həyati əhəmiyyətinin üzə çıxarılması, təklif və tətbiq edilməsi imkanlarının araşdırılması və s. məqsədi ilə həyata keçirilən fikir mübadiləsi müzakirə üsulunun tərkib hissəsidir.

**Əqli hücum** - Uşaqların fəallığını artırmaq üçün tətbiq olunan səmərəli metodlardan biridir. Uşaqların hər hansı konkret problemin həlli və ya suala cavab tapmaq üçün yaradıcı təfəkkürünü üzə çıxarmağa təkan verir, onların müxtəlif vəziyyətlərdən çıxış yolu tapmaq, qərar qəbul etmək səviyyəsini və eləcə də fikirlərini konkret ifadələrlə söyləmək bacarığını üzə çıxarır. “Əqli hücum”un uşaqlar arasındakı ünsiyyətin yaranmasında da rolu böyükdür. Lakin bu metodun tətbiq edilməsində əsas məqsəd verilən problemin həlli yollarını müəyyən etməkdir,

**BİBÖ** (Bilirəm, istəyirəm biləm, öyrəndim). Hər hansı mövzunun öyrənilməsində uşaqların həmin mövzuya aid sərbəst biliklərinin səviyyəsini müəyyən etmək çox əhəmiyyətlidir. Bu, müəllimə şagirdlərdə keçmiş və yeni biliklər arasında əlaqə yaratmağa imkan verir. BİBO metodu uşaqların məşğələ boyu fəallığını təmin edir, birgə öyrənmənin yüksək mərhələsini yaradır.

**Klaster (*şaxələndirmə*)** - Hər hansı mövzuya dair uşaqları açıq və müstəqil düşüncəyə is-

tiqamətləndirən metoddur. Şaxələndirmə əsasən fərdi, cütlər və kiçik qruplar formasında aparılmalıdır. Mövzunun öyrənilməsindən əvvəl uşaq təfəkkürünə təkan vermək onu düşünməyə cəlb etmək, onlarda mövzuya dair maraq yaratmaq, digər məşğələlər və ya uşaqların dünyagörüşünün hüdudlarını üzə çıxarmaq, biliklər arasında əlaqə yaratmaq və s. fəaliyyətlərə xidmət edir. Şaxələndirmə metodunun köməyi ilə uşaq təfəkkürünü də inkişaf etdirmək mümkündür.

**Venn diaqramı** - Hər hansı iki mövzunun (informasiyanın, anlayışın, obyektin və s.) müqayisəli səciyyəsini əks etdirən "Venn diaqramı"nın tətbiq edilməsi tədris baxımından çox maraqlıdır. İki mövzunun oxşar və fərqli cəhətlərinin üzə çıxarılmasına həsr olunan bu metod uşaqları alternativ düşüncəyə cəlb edir, onlarda qoyulmuş məsələnin daha çoxcəhətli müzakirəsini tələb edir.

**Karusel** - Dərsdən əvvəl iri ağ kağızlarda (vatman) mövzuya aid suallar yazılır. Müəllim qruplara müxtəlif sual yazılmış bir kağız verir. Qrup üzvləri sualı oxuyur və bir cavab yazır. Kağızlar saat əqrəbi istiqamətində müəllimin köməkliyi ilə qruplara ötürülür. "Karusel" kimi kağızlar bütün digər qruplardan keçərək axırda öz qrupuna qayıdır, Müəllim bu kağızları yazı lövhəsinə yapışdırır və bütün sinif cavabları müzakirə edir.

**Rollu oyunlar** - hər hansı bir problemə müxtəlif nöqteyi-nəzərdən yanaşmağı tələb edir. Bu üsul uşaqlara  hadisələrin iştirakçısı olmaq və mövcud vəziyyətə başqalarının gözu ilə baxmaq imkanı verir.

Beləliklə, məktəbəqədər yaşlı uşaqlar üçün bəzi əsas metodik priyom və üsullardan xüsusilə oyun metodu, aktiv öyrənmə, əl işləri və yaradıcılıq, nəqletmə və mühazirələr yolu ilə öyrənmə, təcrübə metodu, dəstək və müşahidə metodları, qrup fəaliyyəti və əməkdaşlıq, bədii fəaliyyət və musiqi, məşğələlər vasitəsilə ətraf aləmi öyrətmək, valideynlər və icma ilə əməkdaşlıq kimi istifadə oluna bilər. Məktəbəqədər yaşlı uşaqlarda həyati bilik və bacarıqların inkişafı yolları üzrə işdə tərbiyəçilər  metodik priyom və üsullardan  mütəmadi pedaqoji ustalıqla istifadə etməlidir ki, təlimdə müvəffəqiyyət əldə etsin. Məktəbəqədər yaşlı uşaqlarda həyati bilik və bacarıqların inkişafı üçün müxtəlif metodik üsulların birləşdirilməsi vacibdir. Hər bir uşaq fərdi xüsusiyyətlərinə görə fərqli yanaşma tələb edə bilər, buna görə də tədris metodları uşağın ehtiyaclarına və inkişaf mərhələlərinə uyğunlaşdırılmalıdır.

**Problemin aktuallığı.** Müasir dövrdə məktəbəqədər yaşlı uşaqlarda təlim prosesində həyati bilik və bacarıqların inkişafında istifadə edilən metodik priyom və üsulları daim dəyişir, inkişaf edir. Bu problemin pedaqoji aspektdən öyrənilməsi günümüzün aktual problemidir.

**Problemin elmi yeniliyi.** Son dövrlərdə məktəbəqədər yaşlı uşaqlarda həyati bilik və bacarıqların inkişaf etdirilməsində istifadə edilən metodik priyom və üsulların əhatə dairəsi genişləndirilmiş, bu istiqamətdə beynəlxalq təcrübənin əsaslanmış metod və üsullarından istifadə üzrə iş milli zəmin üzərində qurulsa daha məqsədəuyğun olar. Məktəbəqədər yaşlı uşaqlarda həyati bilikləri inkişaf etdirmək üçün ilk növbədə uşaqların bu istiqamətdə məlumat dairəsini öyrənib metodik priyom və üsullardan istifadə etmək lazımdır.

**Problemin praktik əhəmiyyəti və tətbiqi.** Məqaləni ali məktəb müəllimləri, uşaq bağçası metodistləri və tərbiyəçiləri, tələbələr o cümlədən magistrantlar istifadə edə bilərlər.

Məqalənin əsas tədqiqat obyekti məktəbəqədər yaşlı uşaqların həyati bilik və bacarıqların inkişafı prosesidir. Tədqiqatın predmeti məktəbəqədər yaş dövründə həyati bilik və bacarıqların inkişafı yollarının pedaqoji əsaslarını müəyyənləşdirmək nəzərdə tutulmuşdur.

Məqaləni yazmaqda məqsədimiz məktəbəqədər yaş dövründə uşaqların həyati bilik və bacarıqların inkişafında istifadə edilən metodik priyom və üsulları üzə çıxarmaq, uşaqların həyati bilik və bacarıqların inkişaf etdirməklə tərbiyənin bütün növlərini inkişaf etdirmək, onları gələcəkdə məktəb təliminə hazırlamaq və pedaqoji əsaslarını müəyyənləşdirməkdən ibarətdir.

Məqalədə əldə olunmuş elmi nəticələrdən məktəbəqədər yaşlı uşaqlarda həyati bilik və bacarıqların inkişafı yolları üzrə işin mahiyyətini göstərməklə, bu istiqamətdə üzrə işdə istifadə edilən didaktik oyunlar barədə tövsiyələr tərbiyəçilərə səmərəli yollar göstərəcək, ali və orta ixtisas təhsil müəssisələrinin müvafiq fakültə və şöbələrində dərs deyən müəllimlər, uşaq bağçası metodistləri və tərbiyəçilərin daha yaxşı hazırlanmalarına istiqamət verəcək, proqram və ətraf aləm haqqında məcmuələrin hazırlanması üzrə işi səmərəli qura biləcəklər.

**Ədəbiyyat**

1. Azərbaycan Respublikasında məktəbəqədər təhsilin yeniləşdirilməsi Proqramı. Bakı şəhəri, 12 aprel 2007-ci il.
2. Azərbaycan Respublikasında məktəbəqədər təhsilin proqramı (kurikulumu) (3-6 yaş). Bakı, 2022.
3. Mursaqulova R., Əliyeva Ş. Bağça yaşlı uşaqların təbiətlə tanış edilməsi metodikası. Bakı, 2008.
4. Kərimov Y.Ş. Uşaq məktəbə gedir. Bakı, 2002.
5. Məktəbəqədər müəssisələrdə tərbiyə və təlim proqramı. Bakı, 1998.
6. Məmmədova A.M. Uşaq bağçasında beşyaşlıların məktəbə hazırlanması. Bakı: ADPU, 2007.
https://nsportal.ru/detskiy-sad/raznoe/2020/09/09/rol-hudozhestvennoy-literatury-vo-vsestoronnem-vospitanii-detey

**Г.М. Рагимова**

**Методические принципы и методы, используемые при развитии жизненно важных знаний и умений у детей дошкольного возраста**
**Резюме**

Основным объектом исследования статьи является процесс развития жизненно важных знаний и умений у детей дошкольного возраста. Предметом исследования является определение педагогической основы способов развития жизненно важных знаний и умений в дошкольном возрасте.

Нашей целью при написании статьи является раскрытие методических принципов и методов, используемых при развитии жизненных знаний и умений детей в дошкольном возрасте, развитие всех видов обучения путем развития жизненных знаний и умений детей, подготовка их к школьному обучению в школе. Будущее, и определить свои педагогические основы.

На основе полученных в статье научных результатов, показывающих суть работы над

способами развития жизненных знаний и умений у детей дошкольного возраста, рекомендации по дидактическим играм, используемым в работе в этом направлении, покажут воспитателям, педагогам эффективные пути которые преподают на соответствующих факультетах и кафедрах высших и средних учебных заведений, детских садах, будут способствовать лучшей подготовке методистов и воспитателей, смогут эффективно выстроить работу по подготовке программ и сборников об окружающей среде.

**G.M. Rahimova**

**Methodological approaches and techniques used in the development of life skills and knowledge in preschool children**

**Summary**

The main object of research of the article is the process of development of vital knowledge and skills of preschool children. The subject of the research is intended to determine the pedagogical foundations of the ways of development of vital knowledge and skills in preschool age.

Our goal in writing the article is to reveal the methodological approaches and methods used in the development of vital knowledge and skills of children in preschool age, to develop all types of upbringing by developing children's vital knowledge and skills, to prepare them for future school education and to determine their pedagogical foundations.

By showing the essence of the work on the ways of development of vital knowledge and skills in preschool children from the scientific results obtained in the article, recommendations on didactic games used in this direction will show educators effective ways, will guide teachers, kindergarten methodologists and educators teaching in the relevant faculties and departments of higher and secondary specialized educational institutions, will be able to effectively organize work on the preparation of collections about the program and the surrounding world.

**Redaksiyaya daxil olub:** 03.12.2024